**UOT 33.338**

**Yasəmən Quluzadə**
***Azərbaycan Kooperasiya Universiteti, dissertant***
*jasminshahzade@gmail.com*

# İQTİSADİ SƏMƏRƏLİYİN MAHİYYƏTİ VƏ MƏZMUNU

*Məqalədə səmərəliyin mahiyyətini açıqlayan müasir yanaşmalar araşdırılmışdır. Həmçinin tədqiqat işində iqtisadi səmərəliyi ifadə edən məlumatların təhlili əsasında xərclər və vaxta qənaətin müəssisələrin səmərəliliyinin yüksəldilməsində əhəmiyyətli rol oynadığı göstərilmişdir. Eyni zamanda,tədqiqat işində bir sıra anlayışların konkret izahı verilmiş və səmərəliliklə bağlı nəzəri yanaşmalar ümumiləşdirilmişdir.*

***Məqsəd*** **–** səmərəliyin mahiyyəti və məzmunu ilə bağlı müasir yanaşmaların araşdırılması və ümumiləşdirilməsidir.

***Metodologiya*** **–** tədqiqat işində müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, sistemli yanaşma, analiz metodlarından istifadə edilib.

***Tədqiqatın nəticələri*** **–** tədqiqatda bir sıra anlayışların konkret izahı verilməklə səmərəliliklə bağlı nəzəri yanaşmalar ümumiləşdirilmişdir.

***Açar sözlər:*** *səmərlilik, xərclər, nəticə, əhalinin nominal və real gəlirlərinin səviyyəsi, sosial səmərə*

## Giriş

Səmərəlilik iqtisadiyyatın ən vacib ümumi kateqoriyalarından biridir və eyni zamanda iqtisadiyyatda iqtisadi təcürbənin ən əsas konsepsiyasıdır. İqtisadi təcürbənin ən əsas konsepsiyası olması onunla şərtlənir ki, müasir dövrümüzdə iqtisadi fəaliyyətin hər bir sferasında iqtisadi səmərəliyin üzə çıxartmaq üçün ciddi, səylər göstərilir və buna müvafiq konsepsiyalar hazırlanır.

Nəzəri yanaşmalar göstərir ki, səmərəlilik istehsal ilə birbaşa bağlıdır. İstehsalın əsas hədəfi ən az xərclərlə (maddi, maliyyə və əmək və s.) maksimum səmərəni əldə etmək olduğundan iqtisadi yanaşmalar onu göstərir ki, səmərəliliyi qiymətləndirmək üçün iqtisadi nəzəriyyədə müəyyən olunan yanaşmalardan və metodlardan istifadə etmək məqsədə müvafiqdir.

## Səmərəliliyin mahiyyəti

Səmərəlilik iqtisadi fəaliyyətinin məzmunu ilə bağlı olduğundan iqtisadi fəaliyyəti səmərəlilik baxımından qiymətləndirilməsi üçün iqtisadi fəaliyyətin dörd əsas iqtisadi kateqoriyasına diqqət yetirmək maraqlıdır və fikrimcə, səmərəlilik aşağıda qeyd edilən bu iqtisadi göstəricilərdə kifayət qədər əks oluna bilmişdir. Bunlar aşağıdakılardır:

- “resurslar” ;
- “xərclər”,
- “nəticə”
- “səmərəlilik”.

Göstərilən bu anlayışlar elmi və praktik istifadədə insan fəaliyyəti ilə yanaşı ilk növbədə istehsalda təqdim olunur. Yəni istehsal fəaliyyətində nə qədər resurslardan istifadə olunacaq, xərcələr nə qədər və nəticə nə olacaqdır ki, sonda görülən bu işlərin

səmərəli olub, olmadığı müəyyənləşdirmək üçün qiymətləndirilir. Müasir bazar iqtisadiyyatı şəraitində göstərilən hər bir iqtisadi kateqariyanın məzmununun və qarşılıqlı əlaqəsinin mahiyyətinin öyrənilməsi tələb edir.

Eyni zamanda hər bir təsərrüfat subyekti çalışır ki, öz fəaliyyətində maksimum dərəcədə səmərəli olsun. İqtisadi ədəbiyyatlarda səmərə və səmərəlilik anlayışları bir-birinin sinonimi kimi işlədilir. Bu baxımdan hesab edirik ki, hər şeydən əvvəl “səmərə” ilə “səmərəlilik” anlayışlarını aydınlaşdırmaq və ayırmaq lazımdır. Nəzərəi yanaşmalar göstərir ki, iqtisadi səmərə, maddi nemətlər istehsalında insan əməyinin nəticəsi kimi başa düşülür.

Lakin bununla belə səmərə özü həm maddi nemətlər istehsalında müəssisənin, həm də şəxsin işini hələ kifayət qədər xarakterizə etmir. Daha dolğun bir xarakterizə üçün səmərənin hansı xərclər miqdarında əldə edildiyini bilmək vacibdir. Yanaşmalar təsdiqləyir ki, eyni xərclərlə vahid səmərə və əksinə fərqli xərcləri ilə eyni səmərəni əldə edə bilməsi olduqca realdır. Buna görə də iqtisadi səmərə mütləq bir göstəricidir. Bu səmərəyə səbəb olan xərclərin mütləq dəyərləri ilə müqayisə olunarsa, səmərəlilik adlanan nisbi bir göstərici əldə edilir. Səmərəlilik iqtisadçılar tərəfindən yalnız mənfəət, gəlirlilik dərəcəsi kimi və çəkilən xərclər qarşısında hansı nisbətdə nə qədər məfəətin eldə edildiyini müəyyən etmək kimi qəbul edildiyindən nisbi göstərici kimi başa düşülür və qəbul edilir. Eyni zamanda səmərəlilik mənfəəət, gəlir, əlavə dəyər, məhsulun satışından əldə ediln xalis gəlir və s. ilə müqayisə olunan bilən göstərici olduğundan anlayışı çoxşaxəlidir.

Səmərəliliyin təmin edilməsi qarşıya qoyulan məslənin optimallaşdırılmasının təmin etməkdir. İdarəetmədən tutmuş istehsala qədər səmərəliliyinin artırılması problemi cəmiyyətin ən vacib məsələlərdən biridir. Səmərəlilik çox yönlüdür, xüsusən nəzərə alsaq ki, səmərə sözü hər hansı bir fəaliyyətin nəticəsində meydana gəlir. Buna görə də səmərə sözü iqtisadi, ekoloji, təşkilati, hüquqi, sosial, etik və digər mənaları verə bilir.

Səmərəlilik problemi məslənin optimallaşdırılması, xərclərin minimumlaşdırılması, məhdud resurslardan səmərəli istifadə etməni və s. kimi zəruri məsələləri əhatə etdiyindən hesab edirik ki, səmərəlilik bir iqtisadi kateqorya kimi iqtisadiyyatın bir nömrəli problemidir. Bəzən bir çox iqtisadçı iqtisad elmini səmərəlilyin öyrənilməsi haqqında elm kimi də hallandırırlar.

Ümumi yanaşmada qeyd etdik ki, səmərə əldə edilən nəticə ilə ölçülür. Aparılan təhlillər, onu deməyə əsas verir ki, müasir iqtisadi baxışlar “səmərəliliyi” hər hansı bir sistemin fəaliyyətinin nəticəsi kimi xarakterizə edir. Başqa sözlə hər bir iş nəticə ilə ölçülür. Nəticədə nəyə nail olunubsa bu onun səmərlilik əmsalıdır.

Müasir yanaşmalar təsdiqləyir ki, səmərəlilik insan fəaliyyəti nəticəsində, ilk növbədə istehsalda təqdim olunur və hesab edirik ki, ölçülə bilən bir iqtisadi göstəricidir. Belə ki, səmərəlilik son nəticə, mənfəət, əlavə dəyər, qənaət həm məcmu, həm də ayrı-ayrı elementlərin cəmi ilə ölçülə bilən bir göstərici kimi qəbul edilə bilər.

Tədqiqatın əvvəlində qeyd etdik ki, səmərəliliyə dörd aspektədən baxmaq əhəmiyyətli olardı. Onlardan resurslar və xərclərə birlikdə baxmaq məqsədəuyğundur. Resursların və xərclərin təsnifatı iqtisadi səmərəliliyin mahiyyətini aydınlaşdırmaq üçün böyük nəzəri və praktik əhəmiyyətə malikdir. Göstərilən bu iki amil dialektik cəhətdən bir-birinə bağlıdırlar, ümumi cəhətləri çox olduğu qədər eyni zamanda iqtisadi mahiyyətinə görə də bir-birindən fərqlənir. Formalaşma mənbəsinə görə, bölüşdürülmə xarakterinə görə birbaşa və ya dolayı şəkildə müqayisə olunacaq səviyyədə fərqlidir. İstehsal prosesində maddi, maddi-texniki, əmək, məlumat, maliyyələşdirmə mənbələri qarşılıqlı əlaqədədir.

Belə ki, resuslar adətən əmək vasitələri, kapial, investisiyalar (əsas fondlar) və əmək obyektləri (dövriyyə kapitalı), əmək ehtiyatları müəssisənin işçiləri fiziki və mənəvi

qabiliyyətləri, peşəkar bilik və bacarıqları ilə müəssisənin maddi ehtiyatları və ya resurslarıdır. Bu ehtiyyatları hərəkətə gətirmək üçün müəyyən xərclərin çəkilməsini önə sürür.

“Xərc” yanaşması son nəticə olarq hər hansı bir məhsulun istehsalı, xidmətin görülməsi üçün müəyyən istehsal xərclərinin olmasını zəruri edir. Belə hal isə “resurs-xərc” yanaşması, birləşdirərək istifadə olunan mənbələrin həcmini, istehsal prosesinin son nəticəsini əks etdirir ki, bu da xərclər baımından səmərəliliyi qiymətləndirməyə imkan verir.

Səmərəliliyin qiymətləndirilməsinə dair müasir yanaşmalar onun müxtəlif təsnifatları ilə əlaqələndirilir. Ən sadə formada səmərəliliyin qiymətləndirilməsi aşağıdakı kimi ola bilər:

$$Səmərəlilik = \frac{Çəkilən\ xərc}{Əldə\ edilən\ nəticə}. \qquad (1)$$

Hesab edirik ki, iqtisadiyyatda, iqtisadi nəzəriyyədə və iqtisadi münasibətlərdə səmərəlilik nədir, onun mahiyyətini və məzmununu nələr təşkil etdiyini ilk növbədə öyrənmək üçün tədqiqatçı almilərin bununla bağlı fikirlərinə nəzər salamaq əhəmiyyətlidir.

**Səmərəliyin mahiyyəti və məzmunu ilə bağlı nəzəri baxışlar**

Azərbaycan iqtisadçılarından M.X.Meybullayev tədqiqatlarında səmərə anlayışına aşağıdakı kimi göstərir: “Səmərə – İstehsal prosesində həyata keçirilən fəaliyyətin nəticəsidir”. Səmərlilyi işə aşağıdakı kimi göstərir. Səmərəlilik – istehsal fəaliyyəti prosesində alınan nəticə ilə ona çəkilən xərclərin dəyər ifadəsində müqayisə edilməsini əks etdirən anlayışdır [1, s. 181-182]. Z.Ə.Səmədzadə isə iqtisadi səmərəni iqtisadi fəaliyyətin nəticələri ilə həmin nəticələrin alınması və istifadə edilməsi üçün çəkilmiş xərclər arasındakı fərq kimi göstərir. İqtisadi səmərəlilik sistemin fəaliyyəti prosesində iqtisadi effekt yaratmaq və həqiqətən bu cür effekt yaratma qabiliyyətidir. 2) resursların paylanmasını dəyişdirməklə iqtisadi subyektlərdən birinin vəziyyətinin yaxşılaşması, digərlərinin vəziyyətinin isə pisləşməməsinin mümkün olmamasıdır [2, s. 826-828].

Məhşur ABŞ iqtisadçılarından N.Q.Menkyu isə səmərəliliyi məhdud resurslarından maksimum nemətlərin yaradılması kimi başa düşülməsini təklif edir. İqtisadçı alim hətta inkişaf etmiş ölkələrin digər ölkələrlə müqayisədə irəli çıxmasını da səmərəliliklə əlaqələndirir. Belə ki, N.Q.Menkyu ABŞ-la digər iqtisadi baxımdan zəif ölkənin vəziyyətini səmərəlilik baxımından vəziyyətini bir saat iş vaxtı müddətində istehsal edilən əmtəə və xidmətlərin kəmiyyətləri səviyyələrindəki fərqlərə çevrildiyini göstərir [3, s. 124-125].

Ölkə iqtisadçılarından Q.Y. Əbdülsəlimzadə isə iqtisadi səmərəliliklə sosial ədalətliliyin düzgün, dəqiq nisbətlərinin müəyyənləşdirilməsi ən optimal variant kimi qiymətləndirilə bilər və bütövlükdə cəmiyyət səmərəliliklə ədalətlilik arasındakı seçimi nə qədər mürəkkəb,çətin və eləcədə riskli olsa da, mütləq baş verməli olduğunu göstərir [4, s. 165].

Keçmiş sovet dövrünə aid olan iqtisadi ədəbiyyatlarda iqtisadi səmərəlilik nəticə ilə onun əldə edilməsinə sərf olunan xərclər (resurslar) arasındakı nisbətlə təyin olunurdu.

Belarus iqtisadçılarından T.S.Vertinskaya səməlilik ilə nəticəni sinonim kimi təqdim edir. O göstərir ki, iqtisadi səmərə iqtisadi fəaliyyətin nəticəsidir [5, s. 14]. Başqa bir iqtisadçı K.A.Rayçkiy müəssisənin fəaliyyətinin son nəticəsi məhsul istehsalıdır və məhsul satışının həcmi mənfəət şəklində olur ki, bu da müəssisə fəaliyyətində səmərəlilkdir [6, s. 136].

E.N.Kərimov isə öz tədqiqatlarında qeyd edir ki, iqtisadi fəaliyyətin nəticələri və onun gedişində çəkilən xərclərlə bağlı ən ümumi, əhəmiyyətli və sabit əlaqələrin və

münasibətlərin məcmusunu ifadə edir. Səmərəlilik iqtisadiyyatda istehsal amillərindən istifadəsinin ümumiləşdirilmiş nəticəsini, birləşməsinin keyfiyyətini və məhsuldarlığını təcəssüm etdirir. İqtisadi kateqoriya olaraq səmərəlilik iqtisadi göstəricilərin vahid keyfiyyət və kəmiyyət xarakteristikasını təmin edir. Səmərəlilik bütöv təkrar istehsal prosesinə və bütün mərhələlərinə xasdır: istehsal, bölgü, mübadilə və istehlakda çıxış edir [7, s. 211].

Təbii ki, səmərəlilyin mahiyyəti və məzmunu ilə bağlı yanaşmaları daha da genişləndirmək və artırmaq olar. Bu baxımdan müasir dövrdə olan baxışlara, yanaşmalara nəzər yetirmək də məqsədə müvafiqdir.

Araşdırmalar təsdiqləyir ki, iqtisadiyyatın ən ümumi konsepsiyası kimi səmərəlilik kateqoriyası daim inkişaf edir və buna görə də məzmunu tədricən dəyişir və mürəkkəbləşir. Hesab edirik ki, yalnız istehsalın səmərəsini məhsul və müvafiq xərclərin nisbəti ilə əks etdirən səmərəlilik iqtisadi parametrlərlə məhdudlaşmır, həm də xarici mühitlə münasibətlərin müxtəlif xüsusiyyətlərini, məsələn, öhdəliklərin yerinə yetirilməsi, uyğunlaşma, rəqiblərlə qarşılıqlı əlaqə kimi xüsusiyyətləri əhatə edir, xarici mənfi və müsbət xarici təsirlərin olmasını da özündə cəmləşdirir.

İqqtisadi nəzəriyyədə səmərəlilik daxili və xarici səmərəliliyi, həm də statik və dinamikliyi ayırd edir. Daxili səmərəlilik hər hansı bir müəssisənin fəaliyyətini daxili mənbələr hesabına yəni çəkilən xərclərlə əldə edilən məhsul və ya nəticə nisbətinə əsaslanan qiymətləndirməsini əks etdirir.

Xarici səmərəlilik sosial ehtiyacların strukturunu, onların müəssisə tərəfindən təmin olunma dərəcəsini, istehsal olunan məhsulun faydalılıq səviyyəsini, şirkətin bazardakı payını və dəyişmə istiqamətini, müəssisənin məhsullar və mənbələr üzrə bazarlardakı potensialını əks etdirir.

Statik səmərəlilik, istehsal bazasının tam səviyyəli keyfiyyət yeniləməsi istisna olmaqla, əməliyyat və taktiki məsələlərin həll edildiyi qısa müddətdə bir müəssisənin fəaliyyətini qiymətləndirməyin və idarə etməyin əsas formasıdır.

Dinamik səmərəlilik, uzun müddətdə mənbələrdəki dəyişkən dəyişikliklər və texnologiyalardakı dəyişikliklər nəticəsində daha yaxşı nəticələrin əldə edilməsini nəzərdə tutur. Dinamik effektivlik uzun müddət müəssisənin yüksək rəqabət qabiliyyətini qorumağın əsas yoludur.

Səmərəlilik bəzən iqtisadi ədəbiyyatlarda alt sistemlərin tərkibinə görə (obyektlərə görə) təsnif edir.

- hədəf (funksional),
- texnoloji (resurs) və
- iqtisadi səmərəlilik.

Hədəf (funksional) səmərəlilik tədqiq olunan sistemin işinin təyin olunan məqsədə uyğunluq dərəcəsi kimi başa düşülür. Müəssisə çoxfunksiyalı bir obyekt olduğundan və bir çox sosial-iqtisadi subyekt tərəfindən gözləntilərin obyekti olduğu üçün hədəf səmərəliliyi konsepsiyası bu subyektlərin müxtəlifliyinə və baxışlarına uyğun olacaqdır.

Texnoloji və ya resurs səmərəliliyi, bir tərəfdən, müxtəlif növ məhsulların istehsal həcmləri ilə digər tərəfdən xərclərin həcmi arasındakı nisbətdir.

Səmərəlilik tələb olunan (arzu olunan) faktiki və ya gözlənilən nəticənin əldə olunma dərəcəsi, hədəfə çatma dərəcəsi kimi başa düşülür.Prosesin səmərəliliyi məqsədə çatmaq qabiliyyəti, məqsədə çatma dərəcəsidir.

Bəzən iqtisadi ədəbiyyatlarda keyfiyyət və səmərəlilik göstəriciləri eyni və ya bir-birinin sinonimi kimi göstərilir. Keyfiyyət və səmərəlilik göstəriciləri arasındakı fərq ondan ibarətdir ki, səmərəlilik göstəriciləri prosesi və sistemin fəaliyyətinin təsirini, keyfiyyət göstəriciləri isə sistemin məqsədinin həyata keçirilməsinə uyğunluğunu xarakterizə

edir.

Səmərəlilik iqtisadi kateqoriya olaraq qeyri-bərabər bir daxili quruluşa malikdir. İqtisadi münasibətlər sistemini ifadə edən iqtisadi səmərəliliyi iqtisadiyyatın daxili quruluşuna görə bir çox sahəyə aid edilə bilir: İstehsal üzrə səmərəlilik, əmək üzrə səmərəlilik, bölgü üzrə səmərəlilik, idarəetmə, investisiya, innovasiya, investisiya, İqtisadi artım və s. Qeyd edək ki, sadlanan bu göstəricilərin hamsı bir-biri ilə qarşılıqlı əlaqədədir və müəyyən dərəcədə bir-birini qarşılıqlı şərtləndirir. Həmçinin iqtisadi sistemin ümumi keyfiyyətini,vəziyyətinin ümumi qiymətləndirməsini müəyyən edir. Digər tərəfdən, bu elementlərin hər biri iqtisadiyyatın müəyyən bir sahəsində müstəqil rol oynaya bilər, digər iqtisadi kateqoryalar ilə ziddiyyətə girə bilər, iqtisadi sistemin xarici mühitlə inkişafını və qarşılıqlı təsirinin fərqli cəhətlərini ifadə edə bilər.

Səmərəlilik kateqoriyasının məzmununun elementlərini və strukturunu nəzərə alaraq onu da qeyd etmək lazımdır ki, xarici mühitlə əlaqənin xüsusiyyətlərinə əlavə olaraq sosial səmərəni də əks etdirir. Buna görə səmərəliliyin məzmunu tez-tez iki komponenti – iqtisadi və sosial baxımından nəzərdən keçirilir və buna görə iqtisadi sistemin iqtisadi səmərəliliyi və sosial səmərəliliyi vurğulanır. Buna görə də bir çox iqtisadi ədəbiyyatlarda səmərəliliyi iki yerə ayırırlar:

- iqtisadi səmərəlilik;
- sosial səmərəlilik.

Beləliklə də iqtisadi səmərliliyin ölçü meyyarı kimi ona çəkilən xərclər, sosial səmərəlilik isə sosial parametrlərə xarakterizə ifadə olunur. Nəticədə də bu iki göstərici birləşərək “sosial-iqtisadi səmərəlilik” anlayışını meydana gətirmişdir.

İstehsal səmərəliliyinin qiymətləndirilməsi iqtisadi səmərəliliyin bir meyarından istifadə olunmasını nəzərdə tutur, iqtisadiyyatın bütün sahələri üçün eyni olmalıdır. Beləliklə, istehsalın iqtisadi səmərəliliyinin ümumi meyarı əməyin məhsuldarlıq göstəricisidir. Digər bir göstərici kimi mənfəətin artması ola bilər. Eyni zamanda səmərəlilik göstəricisi istehsalın stimullaşdırlmasına daxili resursların səfərbərliyə alınmasına xidmət etməlidir. Beləliklə də yanaşmalar göstərir ki, səmərəilik iqtisadi kateqorya kimi makro, müəssisə və sosial sferada özünü biruzə verir.

Səmərəlilik kateqoriyasındakı məzmundakı ən böyük fərqlər, iqtisadi sistemin vəziyyəti (tarazlıq, transformasiya) ilə əlaqələndirilir. Qısası yaxın vaxtlara qədər əsasən ənənəvi iqtisadi nəzəriyyədə hökm sürən yanaşmaya uyğun olaraq səmərəlik kateqoriyasının tarazlıq sistemləri konsepsiyası çərçivəsində öyrənilməsinə yanaşma da maraqlıdır.

**Makro, mikro və sosial baxımdan səmərəlilyin göstəriciləri**

Səmərəlilik anlayışında həlledici rol bazar iqtisadiyyatının fəaliyyətinin ayrılmaz tərkib hissəsi olması və onun fəaliyyətinin əsas prinsiplərini başa bazar iqtisadiyyatı baxımından düşməkdir. Bunun üçün böyük idrak və metodoloji rol oynayan L.Valras tərəfindən hazırlanmış ümumi iqtisadi tarazlıq konsepsiyası xüsusilə maraqlıdır. Bu yanaşma V.Pareto tərəfindən daha da işlənib təkmilləşdirilməiş iqtisadiyyatda maksimum səmərəlilik şərtləri ilə ümumi tarazlığa nail olmaq üçün şərtlərini müəyyən etməyə çalışmışdır. Makroiqtisadi baxımdan istənilən səmərəlilik ilk növbədə makroiqtisadi tarazlığı qorumaqla həyata keçirilməlidir. Bununla bağlı K.Errou, J.Debre, O.Lanqe, D.Xiksin və digər məhşur iqtisadçıların yanaşmaları mövcuddur. Ümumən makroiqtisadi səmərliliyin göstəriciləri kimi aşağıdakılar çıxış edir:

- Adambaşına düşən xalis məhsulda artım;
- Vahid xalis məhsul istehsalına sərf olunan resurslar və xərclər;
- Əlavə vahid məhsul istehsalının əsas və dövriyyə kapitalının orta illik dəyərinə

nisbəti;
- Məhsulun bir manatına düşən dövriyyə və istehsal xərcləri və s.

Müəyyən dövrlərdə ictimai-siyasi sabitlik iqtisadi səmərəliliyin əldə edilməsindən, çox əhəmiyyətli bir hədəf kimi qəbul edilə bilər. Belə olan halda bu məqsədləri birləşdirən və ziddiyyətləri aradan qaldıracaq xüsusi bir siyasət hazırlanmalıdır. Resursların və hazır məhsulların bölüşdürülməsi, müəyyən mənada tələbin səviyyəsini müəyyən edirsə, istehsalın həcmi, kapital qoyuluşları, istehsal olunan məhsula qiymətlərin və işçilərə əmək haqqlarının təyin edilməsi müəssisənin fəaliyyətindən asılı olmayaraq qərar verilir. Buna görə müəssisələrin idarəetmə strukturlarının səyləri yalnız planın yerinə yetirilməsinin yollarını və vasitələrini tapmaq, əmək məhsuldarlığını artırmaq və daxili amillər səbəbindən məhsulun maya dəyərini azaltmaq məqsədi daşıyırdı. Təbii ki, bu şərtlər daxilində idarəetmə səmərəliliyinə ən çox yalnız ümumi kateqoriya elan edilmiş istehsal səmərəliliyinin bir elementi kimi baxılırdı. Bu baxımdan müəssisə səviyyəsində səmərəliliyinin göstəriciləri və ya səmərəliliyin meyyarları kimi aşağıdakılar çıxış edir:
- Xalis məhsul vahidinə çəkilən resursların və xərclərin həcmi;
- Xalis istehsal baxımından əmək və kapital məhsuldarlığının dinamikası;
- Xalis istehsal artımının kapital qoyuluşlarına nisbəti;
- İstehsal baxımından kapital qoyuluşlarının geri qaytarılma müddəti;
- İstehsal istehsalın rentabelliyi mənfəət şəkilində əsas və dövriyyə kapitalının orta illik dəyərinə nisbəti;
- Bir manatlıq məhsulun maya dəyərinin azaldılması və s.

Səmərəliliyin məzmunda iqtisadi və sosial komponentlərin şərhi də birmənalı deyildir. Lakin ümumi mənada deyə bilərik ki, iqtisadi səmərəlilik idarəetmənin iqtisadi məqsədini - xərcləri minimuma endirərkən nəticəni maksimum dərəcədə artırmağı ifadə edirsə, sosial səmərəlilikdə - sosial hədəfləri ifadə edir. İqtisadi səmərəlilik az xərclə daha yüksək nəticənin əldə edilməsidir. Sosial-iqtisadi səmərəlilik isə insanların sağlamlığına, ətraf mühitə zərər vurmadan az xərclə daha çox nəticənin əldə edilməsidir. Eyni zamanda, bəzi hallarda iqtisadi və sosial hədəflər bir-birinə uyğundur və biryönümlüdür, lakin daha çox bir-birinə ziddir və hətta qarşılıqlı olaraq istisna edirlər.

Nəzəri yanaşmalar göstərir ki, sosial səmərəliliyi qiymətləndirmək üçün istifadə olunan göstəricilər:
- Əhalinin nominal və real gəlirlərinin səviyyəsi;
- Əhalinin istehlaka və qənaətə marjinal meylliklərinin həddi;
- Gəlir bölgüsünün bərabərlik səviyyəsi (iqtisadi cəhətdən fəal əhalinin real gəlir baxımından kvartil, kvantil və desil bölgüsü);
- Sosial xidmətlərə əhalinin əlçatanlıq səviyyəsi (səhiyyə, təhsil, bədən tərbiyəsi, istirahət zonalarında aktiv istirahət və onun növləri və s.);
- Əhali üçün yüksək keyfiyyətli mənzil, su, qida və müxtəlif müasir sosial əhəmiyyətli funksional istiqamətlərin mövcudluğu və faydaları.

Bir çox nəzəriyyəçi alimin əsas yanaşmalarından biri də resursların səmərəli bölgüsü təmin olunmasıdır. Bunun üçün də idarəetmənin də maksimum dərəcədə şərtlərə uyğun hərəkət edməzi zəruridir.

**Nəticə**

Beləliklə, səmərəlilik kateqoriyasının məzmunu əsasən tarazlıq konsepsiyasına və idarəetmənin səmərəliliyinin artırılması probleminə müvafiq olaraq tarazlıq vəziyyətinə olması müəüm şərt olaraq qarşıya çıxmışdır. “Resurs”larla bağlı yanaşması əldə edilmiş

səmərənin istifadə olunan kapitalla müqayisə edilməsini əhatə edir. Bu yanaşma səmərəliliyi iqtisadi sistemin qarşıya qoyulmuş iqtisadi hədəflərə çatmaq üçün mövcud potensialdan istifadə etmə qabiliyyəti kimi qəbul etməyimizə imkan verir.“Xərc” yanaşması əldə edilmiş səmərəinin istehsal xərclərinə (istehlak edilmiş kapitala) uyğunluğunu nəzərdə tutur. Müəyyən iqtisadi fəaliyyət sahələrini qiymətləndirərkən, səmərəlilik istehlak edilmiş resursları nəzərə aldığından xərclər üzrə yanaşma əsaslandırılmalıdır.

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI**

1. M.X.Meybullayev. Makroiqtisadiyyata giriş. Bakı 2011 səh. 480
2. Z.Ə.Səmədzadə. İqtisadi ensiklopediya. Bakı-2009 səh. 2086
3. Мэнкью Н.Г. Принципы макроэкономики. 4-е изд. / Пер. с англ. — СПб.: Питер, 2012. — 544 с
4. Q.Y.Əbdülsəlimzadə Mikroiqtisadiyyat-Makroiqtisadiyyat s. 303.Bakı-2014;
5. Вертинская, Т.С. Социально-экономическая эффективность внешнеэкономической деятельности на региональном уровне. Минск: Право и экономика, 2005. – 128 с
6. Раицкий, К.А. Экономика предприятия: учебник / К.А.Раицкий. – М.: ИТК «Дашков и К», 2002. – 1012 с.
7. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə Bakı -2010 səh. 631

**Ясемен Гулузаде**

**СУЩНОСТЬ И СОДЕРЖАНИЕ ЭКОНОМИЧЕСКОЙ ЭФФЕКТИВНОСТИ**

***Резюме***

В статье рассмотрены современные подходы, раскрывающие сущность эффективности. Также в исследовании на основе анализа данных, выражающих экономическую эффективность было показано, что затраты и экономия времени играют важную роль в повышении эффективности предприятий. При этом в исследовательской работе дается конкретное объяснение ряда понятий и обобщаются теоретические подходы, связанные с эффективностью.

***Цель*** – исследование и обобщение современных подходов к сущности и содержанию эффективности.

***Методология*** – в исследовательской работе использованы методы сравнительного анализа, логического обобщения, системного подхода, анализа.

***Результат*** – в исследовании дается конкретное объяснение ряда понятий и обобщаются теоретические подходы к эффективности.

***Ключевые слова****: эффективность, затраты, результат, уровень номинальных и реальных доходов населения, социальный эффект*

**Yasemen Quluzade**
***Dissertation of Azerbaijan Cooperative University***

**THE ESSENCE AND CONTENT OF ECONOMIC EFFICIENCY**

***Summary***

The article considers modern approaches that reveal the essence of efficiency. Also in the study, based on the analysis of data expressing economic efficiency, it was shown that costs and time savings play an important role in improving the efficiency of enterprises. At the same time, the research paper provides a concrete explanation of a number of concepts and summarizes theoretical approaches related to efficiency.

***Purpose*** **–** research and generalization of modern approaches to the essence and content of efficiency.

***Methodology*** **–** comparative analysis, logical generalization, systematic approach and analysis methods were used in the research work.

***Findings*** – the study provides a concrete explanation of a number of concepts and summarizes theoretical approaches to efficiency.

***Keywords:*** *productivity, costs, result, level of population numinol and real income, social benefit*